# İtaliyanın kredit reytinqi aşağı düşdü

Beynəlxalq reytinq şirkəti «Moody's», keçən həftə İtaliyanın kredit reytinqini iki pillə endirərək A3'dən Baa2'yə salmışdır. Kredit reytinqinin daha iki pillə düşməsi ilə İtaliya, «qiymətsiz ölkələr» kateqoriyasına salına bilər.

Gözlənilirdi ki, İtaliya hökumətinin aşağı faizlə 7,5 milyard avro dəyərində birillik kredit götürməsi sərmayəçilərin bu ölkəyə inamını artıracaq. Lakin «Moody's»in «İtaliyanın yaxın müddətə iqtisadi mənzərəsinin pisləşdiyi və kredit bazarlarına çıxışının çətinləşdiyi» vurğulanmışdır.

«Moody's» şirkətinin açıqlamasına görə, İtaliya iqtisadiyyatının fond qiymətlərində sürətli bir yüksəliş, bazarlara çıxış imkanlarında isə azalma gözlənilir. Şirkətin qiymətləndirməsində deyilir: «Yunanıstanın avro məkanından çıxması riski çoxalır, bankçılıq sistemi proqnozlaşdırıldığından daha çox kredit zərərinə uğrayan İspaniyanın fond çətinlikləri isə əvvəlki təxminləri ötüb keçir».

Moody's, xüsusi olaraq, borc bataqlığına düşmüş ölkələr üçün keçən ay iki ayrı xilasetmə fondu yaradan Avropa Birliyinin cəhdlərinin yetərli ola bilməyəcəyi barədə xəbərdarlıq edərək «bu mexanizmlərin İtaliya kimi böyük, sistemli və sərbəst bir borclu ölkəyə dəstək kimi istifadə olunmasının bir həddi olacağını» vurğulamışdır.